AzərEnerji

# “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin “Keyfiyyət üzrə strategiyası”

“Azərenerji” ASC elektrik enerjisinin istehsalı, ötürülməsi və dispetçer idarəetməsini həyata keçirən öz fəaliyyəti sahəsində regionda ən böyük və aparıcı müəssisədir.

Səhmdar Cəmiyyətin başlıca məqsədi və vəzifəsi Azərbaycan Respublikasının elektroenergetika sisteminin dayanıqlığını təmin etməklə, elektrik enerjisinin istehlakçılara etibarlı, təhlükəsiz və səmərəli ötürülməsini həyata keçirmək, öz fəaliyyətini davamlı təkmilləşdirmək, istehlakçıların tələbatını tam şəkildə ödəmək və xarici bazarda inamlı tərəfdaş mövqeyini möhkəmləndirməkdir.

Bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

“Azərenerji” ASC və onun tabeçiliyində olan müəssisələr “İSO 9001:2008 Keyfiyyət İdarəetmə Sistemləri” Beynəlxalq Standartının tətbiq olunmasını bəyan edərək, aşağıdakı prinsipləri əsas götürür:

- Öz fəaliyyətini nizamnaməsi, elektroenergetika sahəsində mövcud qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq konvensiyalar, mübadilə və xidmətlər üzrə müqavilələrin tələblərini yerinə yetirərək, qarşıya qoyulmuş və ölkənin mənafeyinə xidmət edən vəzifə və funksiyaların layiqincə həyata keçirilməsi;
- İdarəetmə mexanizminin daim təkmilləşməsi üçün aparıcı vasitə olan İSO 9001:2008 “Keyfiyyət İdarəetmə Sistemləri” Beynəlxalq Standartın tələblərinin tətbiqi, təşkilatın fəaliyyətinin ona uyğunlaşdırılması və bu sahədə davamlı inkişafın təmin olunması;
- İstehsal göstəricilərinin yüksəldilməsi və inkişaf etdirilməsi;
- İstehlakçıların elektrik enerjisinə olan tələbatlarını fasiləsiz təmin edərək, onlara göstərilən xidmətlərin keyfiyyətinin davamlı artırılması;
- ISO 9001:2008 Beynəlxalq Standartın tələblərinə uyğun olaraq, Keyfiyyət İdarəetmə Sisteminin daim yenilənməsini təmin etmək məqsədi ilə həmin sistemin rəhbərlik tərəfindən davamlı nəzarət və təhlil edilməsi;
- Üzərimizə düşən məsuliyyətli və şərəfli öhdəliklərin keyfiyyətli və vaxtında yerinə yetirilməsi məqsədi ilə əməkdaşlarımızın bilik və təcrübə səviyyəsinin daima artırılması;

**“Azərenerji” ASC-nin rəhbərliyi “Keyfiyyət üzrə strategiyası”nın işçi heyətinin diqqətinə çatdırılması, bütün kollektiv tərəfindən həyata keçirilməsi, onun tələblərinə əməl olunması və onun yeni tələblərə uyğunlaşdırılmasını təmin edir.**